**Mahirə HACIYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**Azərbaycan Dillər Universiteti**
**mhacieva@hotmail.com**

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA UTOPİYA FİKRİ

Utopiya insanın firavan həyat üçün alternativ yollar axtarmaq arzusudur. XV-XVI əsrlərdən başlayaraq Qərb ədəbi fikrində utopiya ideyası yayıldı. Bəlli bir inkişaf xətti keçən bu fikir əslində fəlsəfi müzakirə idi və artıq XX əsrdə sürətlə distopiya ədəbiyyatına çevrilməyə və elmi-fantastik bədii ədəbiyyatla qarışmağa başladı. Hal-hazırda sadalanan tendensiya spekyulativ janr olaraq dəyərləndirilir. T.Mor yaradıcılığı ilə ingilis ədəbiyyatına gələn utopiya iki cür – yaxşı yer və olmayan yer kimi izah olunurdu. Görünür, zaman keçdikcə ikinci məna daha çox real səsləndi, insanların mükəmməl bir icma yaratmaq xəyalı qeyri-real görünməyə başladı. Lakin Nizami yaradıcılığı üçün birinci məna daha uyğundur.

Bədii əsər heç zaman sırf estetik zövqu oxşamaq məqsədilə yazılmır. Bədii ədəbiyyat ilk növbədə müəllifin müasiri olduğu problemləri hansısa şəkildə nəzərə çarpdırmaq, hətta bu problemlərin həlli üçün müəyyən yollar təqdim etmək cəhdidir. Utopiya ədəbiyyatı da bu mənada istisna deyil. Platon fəlsəfəsindən, onun “Dövlət” və “Qanunlar” əsərlərindən əsasını götürən utopiya ideyası, demək olar, günümüzə qədər Platonun ideyalarını qoruyub saxlamaqdadır. Bədii ədəbiyyat azadlıqdır, bədii ədəbiyyatda təfəkkürün sərhədi yoxdur. Utopiya məhz bu tərifə uyğundur. Utopiya ədəbiyyatında, xüsusən elmi-fantastik utopiyada insanın edə bilməyəcəyi bir şey, çata bilməyəcəyi məqam yoxdur. Heç fəza da sərhəd deyil. Lakin bədii ədəbiyyatın əsasında insan problemi durur. İnsan üçün də

gözəgörünən deyil, görünməyən sərhədləri keçmək daha çətindir. Buna görə də utopiya insanı mükəmməl varlıqdır, mükəmməl insan olmadan mükəmməl cəmiyyət formalaşa bilməz. Bu mükəmməlliyin təməlində duran qanun isə ədalətdir.

Bəs Azərbaycan ədəbiyyatında utopiyaya yer varmı? Əgər Qərbdə bu fəlsəfi müzakirə XV-XVI əsrlərdə formalaşıbsa, Şərqdə artıq IX-X əsrlərdə, Əl-Fərabi yaradıcılığında mövcud idi. Azərbaycan ədəbiyyatının dahi mütəffəkiri Nizaminin həm yunan mənbələrindən, həm Şərq fəlsəfəsindən kifayət qədər məlumatlı olduğunu bilirik. Buna görə də onun yaradıcılığında utopiya ideyasının əks olunması təəccüb doğurmur. Nədir Nizami utopiyasının özəlliyi?

Dünya ədəbiyyatında olduğu kimi, Nizami üçün də kamil insan olmadan ideal cəmiyyət mövcud ola bilməz. Eynilə ədalət olmayan cəmiyyətdə mükəmməllik axtarmağa dəyməz. Burada padşahın, rəhbərin mövqeyi xüsusilə diqqət çəkir. Adil hökmdar olmalıdır ki, ədalətli cəmiyyət formalaşsın. Platon utopiyasından başlayaraq bu fikir heç dəyişmədən günümüzə qədər bədii utopiyanın əsasındadır. İdarəetmədə zəiflik utopiyanın deyil, distopiyanın formalaşması üçün əsasdır. Nizaminin "İsgəndərnamə"sində Nüşabənin hökmranlıq etdiyi ölkə məhz hökmdarın ədaləti, idarəetmədəki mükəmməllik üzündən firavan bir ölkədir. Dünya ədəbiyyatında yerini tapan bütün utopiyalarda olduğu kimi, burada da təbiətin zənginliyi insanların rifahına xidmət edir.

Reyhanı yaşıldır illər uzunu,
Hər çeşid naz, nemət bürümüş onu.
Yem üçün gələr quş bu gözəl yurda,
İstəsən "quş südü" taparsan burda.
Torpağı yoğrulmuş qızıl suyundan.
Elə bil hər yerdə bitmiş zəfəran.

O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən.

"İqbalnamə"də "İsgəndərin şimala çatması və Yəcuc səddini bağlaması" səfəri zamanı çatdığı utopik şəhər də təbii zənginliyi ilə diqqəti cəlb edir. Bu zənginlik ideal cəmiyyətlə üst-üstə düşür. Buradakı əmin-amanlıq hökmdarı heyrətə salır:

İsgəndər soruşdu: "Nə üçün sizlər
Qorxu bilməzsiniz heç zərrə qədər?
Neçün burda belə arxayınlıq var?
Neçün qıfılsızdır burda qapılar?
Yoxdur heç bir bağda keşikçi, bağban,
Neçin sürünüzü güdməz bir çoban?
Çobansız sürülər nədir bir belə,
Baxdıqca yayılıb düzənə, çölə?
Belə arxayınlıq, laqeydlik nədir?
Sizin inamınız, deyin, kimədir?"

Bu suallara verilən cavab sözün əsl mənasında utopik, ideal insanların formalaşdırdığı mükəmməl yerin təsviridir. Deyə bilərik ki, yalan, hiylə, xəsislik və gərəksiz söz-söhbətdən uzaq bu cəmiyyətin təsviri bədii əsərlərdə əksini tapmış utopik icmalar arasında bədii gözəlliyi ilə xüsusilə seçilir. İsgəndər üçün bu utopik cəmiyyət əsl dərs olur.

"Elə bil dünyanı o Pərvərdigar
Bu mərd insanlarçün etmiş bərqərar.
Bunlar şövkət vermiş aləmə, yəqin,
Sütunu bunlardır bütün aləmin.
Düz yaşayış yolu budursa əgər,
İnsan bunlardırsa, bəs nəyik bizlər?

Bizi Haqq göndərib çölə, dənizə,
Qəsdi göstərməkmiş bunları bizə.

Vəhşi adətlərə eyləyib nifrət,
Öyrənək bunlardan ayin, mərifət".

Nizami utopiyasında bir sıra özünəməxsus cəhətlər də var. Dünya ədəbiyyatında bədii utopiya nəsrlə yazılsa da, hələ roman janrının tam olaraq formalaşmadığı dövrdə yaranırdı. Bu da əsərləri bir sıra keyfiyyətlərdən məhrum edirdi. Əsərlər yeknəsəq idi, dinamika yox idi, ümumiyyətlə proses verlmirdi, nəticə təsvir olunurdu. Yəni utopiya artıq hazır cəmiyyət idi. Nizami isə nəzmdə, formalaşmış bir janrda dinamik inkişafı əks etdirir, "İsgəndərnamə"də adil hökmdarın formalaşmasını, yetişməsini, kamil insanlardan ibarət mükəmməl cəmiyyətin inkişaf xəttini təsvir edir. Janrın bütövlüyü ilə ideyanın mükəmməlliyi tamamilə üst-üstə düşür.

Nizami utopiyası müəyyən qədər araşdırılmışdır. Bu araşdırmaçılardan biri iranlı alim Abdulhuseyn Zərinkubdur. Onun əsəri "Nizami. Ömürlük utopiya axtarışı" adlanır. Bu ad təsadüfi deyil. Nizaminin bütün əsərlərində firavan həyat üçün əsas hesab etdiyi prinsiplər – ədalət, yüksək mənəvi əxlaqi xüsusiyyətlər və kamil insanın formalaşması təsvirini tapır. Bununla da Nizami yaradıcılığı başdan-başa utopiyanın, yəni firavan yerin tərənnümüdür desək, yanılmarıq.

**Mahira Hajiyeva**

# UTOPIAN THOUGHT IN THE CREATIVE WORLD OF NIZAMI GANJAVI

***Summary***

The artistic heritage of the great Azerbaijani thinker Nizami Ganjavi is open for multifaceted analysis. In his creative world, the idea of utopia precedes the primary sources known to us. Nizami's utopia is based on several main points. Nizami's utopia is a perfect society created by the unity of natural wealth, a just ruler and an ideal man. Nizami gives a detailed description of the flawless community mainly in his "Iskander-nameh". However, the basic utopian principles form the leading idea in almost all of his works. Therefore, it is safe to say that the work of a great thinker as a whole is an expression of the desire for utopian human prosperity.